Milli Kültür Araştırmaları Dergisi (MİKAD) / Cilt 7 - Sayı 1

**Sorumlu Yazar:** Dr. Namiq ƏHMƏDOV / Bakı Dövlət Universiteti, Beynəlxalq Jurnalistika və İnformasiya Siyasəti Kafedrası. tuqay59@mail.ru

**ORCID ID:** 0000-0003-1970-182X

**Atıf:** Əhmədov, N., (2023), Azərbaycançılıq İdeyasının Kamil İdeoloqu Mühacir Publisist Hüseyn Baykara (1904-1984), Milli Kültür Araştırmaları Dergisi, 7 (1), S. 134-143.

**Gönderim ve Kabul Tarihi:** 08 Mart 2023 / 04 Haziran 2023

Araştırma Makalesi

ISSN: 2587-1331

DOI: 10.55774/mikad.1261918

https://dergipark.org.tr/tr/pub/mikad

# AZƏRBAYCANÇILIQ İDEYASININ KAMİL İDEOLOQU MÜHACİR PUBLİSİST HÜSEYN BAYKARA (1904-1984)

**Xülasə**

Sovet rejiminin uzun illər adını yasaq etdiyi, amma Azərbaycan mühacirət tarixinin şanlı səhifələrində qürurla anılan və ömrünün sonuna qədər Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış Hüseyn Baykara müstəqillik tariximizin xalqımıza yenidən bəxş etdiyi və tanıtdığı şəxsiyyətlərindəndir. Hüseyn Baykara Şuşada doğulub, əsil adı Qara, soyadı Hüseynbəyli olub. Məşhur Şirinbəyovlar nəslindən idi. AXC-nin qurucuları sırasında olmasa da, bolşeviklər əleyhinə mübarizə yolunu gənclik illərindən seçmişdi.

Türkiyədə Hüseyn Baykara adı ilə yaşayır, Ankara Universitetinin hüquq fakültəsini bitirdikdən sonra Elağızda hakim işləyir. Bir müddət sonra İstanbula qayıdır və prokuror vəzifəsini tutur, sonra vəkilliklə məşğul olur. Azərbaycanın istiqlalı uğrunda mübarizəsini də davam etdirir. "Azəri-Türk", "Odlu Yurd" və b. qəzet-jurnallarda Azərbaycan mədəniyyəti, ədəbiyyatı, ziyalıları, Azərbaycan xalqının mübarizə tarixi haqqında elmi, publisistik məqalələrlə çıxış edir. Onun məqalələrində yanğı və nisgillə təqdim edilən qəsb edilmiş, yaralı bir Azərbaycan var.

Baykaranın mühacirətdə çap olunmuş üç kitabı var: "Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr" Ankarada 1966-cı ildə, "Azərbaycan istiqlal mübarizəsi tarixi" adlı kitabı İstanbulda 1975-ci ildə və üçünücü kitabı "İran inqilabı və azadlıq hərəkatları" 1978-ci ildə İstanbulda nəşr edilmişdir. Uzun illər Fransanın Azərbaycandakı səfirliyində çalışmış, fransız dilində çoxsaylı məktəb və universitet dərsliklərinin müəllifi olan Azelma Həsənova bu kitabları azərbaycan və rus dillərində nəşr etdirib ictimaiyyətə çatdırıb.

**Açar sözlər:** Azərbaycan, Türkiyə, Hüseyn Baykara, Şuşa, istiqlal mübarizəsi.

# A PERFECT IDEOLOGIST OF THE IDEA OF AZERBAIJANISM
# SOME NOTES ABOUT THE EMIGRANT PUBLICIST HUSEYN BAYKARA (1904-1984)

**Abstract**

Huseyn Baykara, whose name was banned by the Soviet regime for many years, but who is proudly remembered in the pages of the emigration history of Azerbaijan, is one of the great personalities of our history of independence represented and introduced to our people in our days. Huseyn Baykara was born in Shusha, his real name was Gara, and his surname was Huseynbeyli. He descended from the famous Shirinbeyovs family. Although he was not among the founders of the Azerbaijan People's Republic (APR), he chose the path of struggle against the Bolsheviks from his youth.

He lived in Turkiye under the name Huseyn Baykara, and after graduating from the Faculty of Law of Ankara University, he worked as a judge in Elazig. He returned to Istanbul and took the position of a prosecutor, then practiced as a lawyer. He also continued his struggle for the independence of Azerbaijan. He published scientific and journalistic articles in the "Azeri-Turk", "Odlu Yurd" and other newspapers and magazines.

Three books containing works of Baykara were published in Turkey. Azelma Hasanova, who worked at the French embassy in Azerbaijan for many years and is the author of numerous textbooks in French, has published these books in Azerbaijani and Russian languages and delivered them to the public. Huseyn Baykara fought for the independence of Azerbaijan until the end of his life. He passed away in July 1984 and was buried in Karaca Ahmed cemetery in Istanbul.

**Key words:** Azerbaijan, Turkiye, Hüseyn Baykara, Shusha, struggle for independence.

# ПОДЛИННЫЙ ИДЕОЛОГ ИДЕИ АЗЕРБАЙДЖАНСТВА
# НЕСКОЛЬКО ЗАМЕТОК О ПУБЛИЦИСТЕ-ЭМИГРАНТЕ ГУСЕЙНЕ БАЙКАРЕ (1904-1984)

**Резюме**

Имя Гусейн Байкары долгие годы находилось под запретом советской власти, но сегодня мы с гордостью упоминаем его имя говоря о славных страницах истории эмиграции Азербайджана. Он до конца жизни боролся за свободу Азербайджана и он один из тех, кого наша история независимости заново вернула и подарила нашему народу, познакомив с его произведениями на азербайджанском и русском языках. Гусейн Байкара родился в Шуше, его настоящее имя Кара, а фамилия Гусейнбейли. Он родом из знаменитого карабахского рода Ширинбековых. Хотя он и не был в числе основателей АДР, но с юности выбрал путь борьбы с большевиками. Еще в конце 1923 года он был заключен в тюрьму за свои национальные идеи и находился в одной камере с поэтом Ахмедом Джавадом.

Он живет в Турции под именем Гусейн Байкара, после окончания Университета Анкары работает судьей в Элазыге. Через некоторое время, в 1947 году он переезжает в Адану где работает адвокатом по экономическим и коммерческим вопросам. И с 1961 года он живет в Стамбуле. Всю свою жизнь он продолжает бороться за независимость Азербайджана, публикуя научные и публицистические статьи об азербайджанской культуре, литературе, интеллигенции, истории борьбы азербайджанского народа в газетах и журналах как «Азери-Тюрк», «Одлу Юрд» и другие. В его статьях он с яростью и болью говорит об узурпированном и израненном Азербайджане.

Байкара написал три книги, изданные в эмиграции в Турции на турецком языке: «Реформистское движение в Азербайджане", " История борьбы за независимость Азербайджана" и "Иранская революция и освободительные движения". Его близкая родственница Азельма Гасанова, преподаватель БГУ, издала эти книги на азербайджанском и русском языках и представила их общественности.

Гусейн Байкара был одним из тех, кто до конца жизни боролся за идею азербайджанства и независимого Азербайджана, что является ее истинным воплощением. Он умер 1 июля 1984 года и был похоронен на кладбище Караджа Ахмед в Стамбуле.

**Ключевые слова:** Азербайджан, Турция, Гусейн Байкара, Шуша, борьба за независимость.

## Giriş

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix xalqımıza təkcə azadlıq adlı əvəzsiz bir neməti yox, həm də şərəf duyulan bir tarixi də qaytarmış oldu. Tarixçi alimlərimizin, tədqiqatçıların üzünə "tam məxfi" və "məxfi" qrifləri ilə bağlı elan edilmiş arxivlərin, fondların açılışı uzun illər gizlədilmiş şərəfli bir tarixə dair önəmli və yeni münasibətləri ortaya qoymuşdur. O cümlədən Sovet rejiminin uzun illər adını yasaq etdiyi, amma Azərbaycan mühacirət tarixinin şanlı səhifələrində qürurla anılan və ömrünün sonuna qədər Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış Hüseyn Baykara müstəqillik tariximizin xalqımıza yenidən bəxş etdiyi və tanıtdığı şəxsiyyətlərindəndir. Bəlkə də Azərbaycanda qalsa idi onu Qara Hüseynbəyli kimi tanıyacaqdılar. Amma qalmadı... qalsaydı, ola bilsin rejim tərəfindən həbs edilib və bir vaxtlar həbsxanada bir neçə ay eyni kamerada yoldaşlıq etdiyi Əhməd Cavadın tale yolunu da yaşamalı olardı: ya Sibirə göndərilərdi, ya da güllələnərdi. Amma tale ona bam-başqa bir həyat yolu seçməyə məcbur etdi.

Hüseyn Baykara Şuşada doğulub (1904), əsil adı Qara, soyadı Hüseynbəyli olub. Məşhur Şirinbəyovlar nəslindəndir. AXC-nin qurucuları sırasında olmasa da, bolşeviklər əleyhinə mübarizə yolunu gənclik illərindən seçmişdi. Hətta 1923-cü ilin sonlarında milli ideyalarına görə həbs edilmiş və həbsxanada milli mücadilə şairi Əhməd Cavadla eyni kamerada məhbəs yoldaşı olmuş, həbsdən bir neçə il sonra ona xaricə mühacirətə getməyi təklif etmiş, lakin etirazla qarşılanmışdır. Bununla bağlı o, "Azərbaycanda istiqlal mücadiləsinin tarixi" kitabında yer alan Əhməd Cavada həsr etdiyi məqalədə yazır: "Həbsdən Əhməd Cavad Azərbaycan kommunistlərinin müdaxiləsi ilə, mən isə bir təsadüf nəticəsində qurtuldum. (Ə.Cavadın çıxarılmasına kömək edən kommunistlər sonradan Stalin tərəfindən güllələndi). Hərdənbir onun evinə gedərdim. Bir gün təsadüfən Ə.Cavadla, gizli milli istiqlal komitəsinin rəhbəri Dadaş Həsənzadə və liderlərdən Rəhim bəy Vəkili ilə görüşdük. Uzun söhbətdən sonra mən gizli komitənin tanınmış üzvlərindən bir qisminin Azərbaycanın xaricinə çıxmasını təklif etdim. Əhməd Cavad və Rəhim bəy Vəkilli mənim sözlərimə bərk hirsləndilər... Azərbaycan istiqlal mücadiləsinin hər üç lideri də mənim bu təklifimə qarşı çıxdılar və dedilər: "Mən xarici ölkəyə gedim, sən get, o biri də getsin, bəs bu bədbəxt və talesiz günləri bu millətlə kim paylaşsın?" O vaxtdan düz yarım əsr keçmişdir. Azadlıq uğrunda mübarizə aparan hər üç azadlıq aşiqi vədlərinə sadiq qalmış, Azərbaycan xalqının bədbəxt günlərini xalqla birgə yaşamışlar. Dadaş Həsənzadə güllələnmiş, Rəhim bəy Vəkilli özünü öldürmüş, Əhməd Cavad isə Sibirə sürgün olunmuş və ondan bir daha xəbər gəlməmişdir" (Baykara, 2021: 220).

Qazax seminariyasında ədəbiyyat müəllimi olan qardaşı Surxay Hüseynbəyli siyasi əqidəsinə görə həbs edilmiş və 10 il müddətinə SLON - Solovetski Xüsusi Təyinatlı Düşərgəsinə sürgün edilmişdi. O, dostları vasitəsilə qardaşına xəbər göndərir ki, təcili Bakını tərk etsin, onu da həbs edəcəklər. Beləliklə, 1927-ci ilin yazında Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alan Qara Hüseynbəyli çoban paltarı geyinərək İrana, oradan Türkiyəyə köçür.

### 1.Türkiyə Həyatı və Mücadiləsi Haqqında

O dövrdə yüzlərlə Azərbaycanlı mühacirə qucaq açan Türkiyə Qara Hüseynbəyli üçün də yeni yürd-vətən olur. Əmir Teymurun nəvəsi Bayqara Mirzənin oğlu, Teymurilər sülaləsinin hökmdarlarından olan böyük xaqan və şair Sultan Hüseyn Bayqaranın (1438-1506) adını özünə ad götürür və Türkiyədə Hüseyn Baykara adı ilə yaşayır və bu adla da

məşhurlaşır. Ankara Universitetinin hüquq fakültəsini bitirir. Bəzi mənbələrdə və haqqında yazılan elmi tədqiqtlarda onun İstanbul Universitetinin məzunu olduğu bildirilsə də, Məhəmməd Əmin Rəsulzadənin baş redaktoru olduğu və İstanbulda yayımlanan "Odlar Yurdu" jurnalının 19-cu sayında yayımlanan "Bu il məzun olanlar" başlıqlı xəbər bəs edir ki, bu barədə mülahizələr ortaya qoymayaq. Xəbərdə 1930-cu ildə Türkiyədə təhsil alan tələbələr haqqında qısa məlumat yer alır: Bu il azərbaycanlı gənclərdən Baykara Hüseyn bəy Ankara Hüquq fakültəsindən, Rüstəmbəyli Şükrü, Tofiq Rahim bəylər İstanbul oğlan liseyindən və Zeynalzadə Hakimə xanım İstanbul qız liseyindən məzun olublar (Əhməd, 2018:107).

Universiteti bitirdikdən sonra Elazığa göndərilir, 1947-ci ilə kimi hakim vəzifəsində çalışır. Sonra ailəsi ilə Adanaya köçür və vəkil vəzifəsini tutur. Adanadakı vəkillik həyatı çox işgüzar və gəlirli olur, hətta böyük portağal bağlarına sahib olur. 1961-ci ildə İstanbula qayıdır, bir müddət prokuror vəzifəsini tutsa da, sonra ömrünün son günlərinədək vəkilliklə məşğul olur. İstanbul həyatı onun ədəbi-publisistik fəaliyyətinin daha ardıcıl, məhsuldar illəridir və ömrünün ən önəmli səhifələrini "bir dəfə azadlıq dadını dadmış" Azərbaycanın istiqlalı uğrunda mübarizəyə həsr edir. Türkiyədə nəşr edilən "Azəri-Türk", "Odlu Yurd" və başqa qəzet-jurnallarda Azərbaycan mədəniyyəti, ədəbiyyatı, ziyalıları, Azərbaycan xalqının keşməkeşli mübarizə tarixi haqqında elmi, publisistik məqalələrlə çıxış edir. Onun məqalələrində yanğı və nisgillə təqdim edilən qəsb edilmiş, yaralı bir Azərbaycan var. Hüseyn Baykara "...Azərbaycanda milli istiqlal savaşının tarixini yazmış, ideyaların milli ideologiya bazasında tədriclə necə formalaşması prosesini izləmiş, bu savaşda təkamülün morfologiyasını açıq-aydın şəkildə və analitik yöndə izah etməyə çalışmışdır. Bu sahədə onun xidmətləri əvəzsizdir, başqa heç bir ictimai-siyasi xadim onun qədər ardıcıl şəkildə ideoloji baxışları zamanın və dövrün, o dövrlərdə baş verən qlobal hadisələrin süzgəcindən keçirib təhlil edə bilməmişdir" (Nəbiyev, 2015:7).

Azərbaycanın düçar olduğu, başqa sözlə desək düçar edildiyi bəlaların başında duran, əslində bu gün də aktuallığını itirməyən erməni məsələsi Baykaranın təqdimatında bütün reallıqları ilə yer alır. O, "Bakıda türk və müsəlmanlara qarşı törədilən qanlı qırğından sonra yaradılan Sovet hökuməti" və bolşevik rəhbərlər tərəfindən Bakıda sovetləşdirmə əməliyyatının başında duran Stepan Şaumyanın "daşnaq partiyasının köməyi ilə türk-müsəlmanlara olan düşmənçiliyi"nin əsl mahiyyətini çox açıq açıqlayır (Baykara, 2021:272). Düzdü o dövrdə Azərbaycanda nəşr edilən mətbu orqanlarında az da olsa bu barədə məlumatlar var. Məsələn, "Açıq söz" qəzetinin 1918-ci il 18 mart qanlı bazar günündən 3 gün əvvəl təqdim etdiyi "Dəhşətli saat gəlir, birlik gərək" (Açıq söz,1918: 5 yanvar) kimi yazıların mətbuatın nə qədər fəal bir mövqedə dayandığını ortaya qoysa da Şaumyanın tabeliyində olan Bakı Sovetinin qoşunları "vətəndaş müharibəsi" adı ilə tarixin ən vəhşi qırğınını törətdilər. Bir il sonra Üzeyir Haçıbəyov bu qırğını "vətəndaş müharibəsi", "sinfi mübarizə" adlandıranların yalanını ifşa edərək yazırdı: "Bunun yalan olduğunu isbat edən minlərcə müsəlman füqareyi-kasibəsinin meyitləridir ki, bolşevik qoşunu tərəfindən "müsəlman olduğuna görə" çox rəhmsiz bir surətdə öldürülmüşdülər" (Hacıbəyli,1919:5 mart). Təbii ki, Üzeyir bəyin yazdıqları da sübut edir ki, bu qırğınlar bolşevik adı ilə erməni daşnaqlarının törətdiyi faciə idi. O dövrün qəzetlərində yazılanlar da bunları sübut edir: "Bir müsəlman həyətində 30-dan 40-a qədər çoçuq, arvad və kişi cənazələrinin quru yerdə buraxılmış cənazələrini gördüm. Müsəlmanların təlafatı: yalnız qətl edilənlər 5-6 minə qədərdir" (Hacıbəyli,1919:5 mart). Amma Baykaranın təqdimatında bunların daha açıq təqdimatını və məhz Şaumyanın rəhbərliyi ilə təşkil edildiyini görməkdəyik: "Şaumyan rus əsgərlərinə, ermənilərə arxalanaraq menşevik, eser və müsavatçıların çoxluq təşkil etdikləri Bakı Soveti və bələdiyyə məclisini zorla yeniləşdirdi və bolşeviklərin çoxluğunu təmin etdi.

Sonra Bakı şəhərinin idarələrində çalışan azəri[1] türklərini vəzifələrindən uzaqlaşdırdı... Bakıda özünün rəhbərliyi altında Sovet hakimiyyəti quran Şaumyan azərbaycan türklərinə "sizə azərbaycan istiqlaliyyəti yerinə bir məzarlıq bəxş edəcəyəm" deyə açıqça söyləyirdi" (Baykara, 2021:272).

"Azərbaycanda erməni basqısı və Naxçıvan məsələsi", "Azərbaycan istiqlalının 50 illiyi dolayısı ilə", "Azərbaycan cümhuriyyətinin iki hərbi zəfəri", "Azərbaycan renessansını yapanlardan Abbasqulu Ağa Bakıxanov", "Azərbaycan istiqlal mücadiləsinin iqtisadi təməli", "Dədə Qorqud kitabı üzərinə qeydlər" və Türkiyənin mətbuat orqanlarında dərc edilən başqa yazılar həm də Hüseyn Baykaranın əlinin çatmadığı doğma Azərbaycanla bağlı olan narahat taleyinin həyacan sədalarıdır.

## 2. Azərbaycan Milli İstiqlalının Əlifbası

Baykaranın mühacirətdə üç kitabı - "Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr" Ankarada 1966-cı ildə, "Azərbaycan istiqlal mübarizəsi tarixi" adlı kitabı İstanbulda 1975-ci ildə və üçünücü kitabı "İran inqilabı və azadlıq hərəkatları" 1978-ci ildə İstanbulda nəşr edilmişdir. O, bu kitablardan ikisini, İstanbulda 1975-ci ildə nəşr edilən kitabına yazdığı ön sözdə Azərbaycanın azadlıq mübarizəsinin əlifbası kimi təqdim edir: "Bütün nöqsanları ilə nəşr etdiyim iki kitab- "Azərbaycan mədəniyyəti tarixi" və "Azərbaycan istiqlal mübarizəsi tarixi"- Azərbaycanın azadlıq mübarizəsinin əlifbasıdır. Gələcəkdə bu mövzuda daha sanballı yazanlar çıxacaqdır. Zaman Azərbaycan xalqının keçmişini və mübarizəsini aparanları və bunu bilənləri getdikcə unutduracaqdır. Beləliklə, gələcək nəsil mübarizəni necə və haradan öyrənəcəkdir? Məncə, bu kitabları yazdıran səbəblər məhz bunlardır (Baykara, 2018:17).

O, birinci kitabında - "Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr"- Azərbaycanda baş verən hadisələrin doğru mahiyyətini təqdim etməklə, həm də mübarizəsinin davamlı olduğunu ortaya qoya bilmişdir. Burada istər-istəməz Qafqazın azadlıq uğrundakı mücadilə tarixinin bütün cəhətləri, tarixi reallıqları, həmin dövrdə meydana çıxmış şəxsiyyətlərin fəaliyyətlərinin siyasi və mədəni mahiyyəti bütün çalarları ilə təqdim olunur. Bu əsərdə Azərbaycan xalqının azadlıq mübarizəsinin şanlı bir tarixini görməkdəyik. Müəllif haqlı olaraq yazır ki, "Rusiyanın Azərbaycanı işğalı yarım əsr davam edir...Napolionu məğlub edən imperiyanın Azərbaycanın istilasına bu qədər zaman sərf etməsi xalqımızın müstəqil yaşamaq arzusu, fürsət olduqca üsyanlar etməsi, işğala qarşı çıxmasıdır" (Baykara, 2021:87-88). 19-cu əsrdən başlayaraq Azərbaycan xalqının yeni bir dövrə qədəm qoyması, çar Rusiyası tərəfindən qəsb edilmiş azadlığın yenidən qazanılmasının dialektikası aydın görünür. Onun fikrincə, şimali Azərbaycanda da milli oyanış, yeniləşmə hərəkatı Mirzə Kazım bəy, A.A.Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir ilə başlamışdır. O, Mirzə Kazım bəyi bu cür dəyərləndirir: "Çar Rusiyası kimi despotik bir ölkədə yaşayan türklər üçün təmiz və müştərək bir türk dilinin vacibliyi fikrini Mirzənin irəli sürməsi və bu layihənin Çar hökumətinə təqdim etməsi böyük mədəni cəsarətin göstəricisi idi. Bundan başqa xristian bir türkün İslam dilinin gözəlliklərindən bəhs edən əsərlər yazması, eyni zamanda bu fikirlərini yaymaq məqsədi ilə dərslik hazırlaması da əsl cəsarət nümunəsidir" (Baykara, 2021:93). Yaxud professor Fuad Köprülünün "...islam mədəniyyətinin Avropa mədəniyyəti ilə birləşməsindən meydana gələn şair və yazıçılar sırasında" (Köprülü, 1935:19) xüsusi dəyər verdiyi Abbasqulu Ağa Bakıxanovu "Azərbaycanda oyanış hərəkatının

[1] Əsərdə bu cür işləndiyi üçün dəyşiklik etmədik və olduğu kimi saxladıq. Amma "azəri", "azəri türləri yox, "Azərbaycan türkləri" ifadəsinin işlədilməsi doğrudur. "Azəri" ifadəsinin azərbaycanlıların etnik kimliyi kimi təqdim etmək yanlışdır. Birincisi, Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir, Azərbaycan türkləri dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. İkincisi, İranda "azəri" adında etnik qrup mövcuddur və bir etnik qrupun adının xalqa verilməsi qəbuledilməzdir.

ikinci böyük şəxsiyyəti" (Köprülü, 1935:98) adlandırması, eləcə də İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakirin həyat və yaradıcılığına həsr etdiyi məqalələr Baykaranın Azərbaycandan uzaqlarda yaşamasına baxmayaraq ondan bir an belə uzaqda durmamasının təsdiqidir. O, Azərbaycanda intibah dövrünün nümayəndələri sırasında gördüyü M.F.Axundzadə, H.B.Zərdabi və Seyid Əzim Şirvaninin timsalında yüksələn xətlə davam edən mübarizəsini, onların haqqındakı təqdimat və tədqiqatlar silsiləsində xalqın müstəmləkə və cəhalətlə mübarizəsində nələrə qadir olduğunu incəliklə göstərə bilmişdir: "XIX əsrin ikinci yarısında yetişən bu şəxsiyyətlər Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə və şair Hacı Seyid Əzim Şirvanidir. Bu üç böyük Azərbaycan ziyalısı Azərbaycanı qərb mədəniyyəti ilə tanış etmək üçün... üç mərkəzin təməlini qurmağa nail olmuşdular: mətbuat, teatr və məktəb (Baykara, 2018:176).

Müəllifin "səkkiz illik zəhmətimin məhsulu" (Baykara, 2021:17) adlandırdığı "Azərbaycan istiqlal mübarizəsi tarixi" birinci kitabdan - "Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr" - 9 il sonra işıq üzü görmüşdür. Bu kitabda müəllif Azərbaycanın istiqlal savaşı tarixi ilə yanaşı, milli azadlıq hərəkatının siyasi-ideoloji, siyasi-fəlsəfi mahiyyətini də göstərməyə nail olub. Elşən Türkel Əbdülhəsənlinin müəllif haqqında təqdimatında yazdığı kimi "Hüseyn Baykara "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitabında Azərbaycanın yaxın tarixini, müstəqil cümhuriyyətin az vaxt ərzində gördüyü işləri, ölkənin başına gələn fəlakətləri oxuculara çox məharətlə çatdıra bilmişdir. Müəllif bu əsərdə Azərbaycanın bolşeviklər tərəfindən istila olunmasını, ermənilərin bundan istifadə edərək Azərbaycanda qırğın törətməsini, Türkiyəli soydaşlarımızın bizə etdikləri hərbi yardımı və digər hadisələri tarixi faktlar əsasında işıqlandırmışdır"(Baykara, 2021:10).

Müstəqil milli Azərbaycan Cümhuriyyəti dövrü haqqında ətraflı məlumatı olan müəllif bu kitabda Azərbaycanın Rusiya tərəfindən işğalının məramını, yeni yaranan dövlətin başına gələn müsibətlərin canlı şahidi olaraq danışır. O, V.İ.Leninin "alman casusu" kimi fəaliyyətindən, eləcə də S.Şaumyanın hansı məqsədlərlə Bakıya gəldiyini və burada törətdiyi qırğınların obyektiv səbəblərini, ermənilərin və bolşeviklərin törətdikləri faciələrin "vətəndaş müharibəsi" adı ilə pərdələndiyini faktlar əsasında göstərir. Kitabda Türklərin hərbi yardımı haqqında da maraqlı məlumatlar yer alır. İçtimaiyyətə məlum olmayan bəzi hadisələr və sənədlər haqqında məlumatlar da maraq doğurur. Kitabda Azərbaycanın istiqlal mübarizəsində fəal iştirak edən və bir qismi məcburiyyət ucbatından, digər bir qismi isə könüllü olaraq mühacirətdə olan ziyalılar haqqında da geniş məlumatlar var.

Baykaranın üçünücü kitabı 1978-ci ildə İstanbulda nəşr edilmişdir, "İran inqilabı və azadlıq hərəkatları" adlanır. Kitabda XX əsrin əvvəllərində dünyada baş verən siyasi, iqtisadi və sosial-intellektual problemlərin xalqların, millətlərin taleyindəki rolu, genişlənməkdə olan milli hərəkat və milli oyanış, onu cəmiyyətə gətirdiyi dalğalanmalar təhlil obyektidir. Bu oyanışın fonunda İranda cərəyan edən ictimai-siyasi proseslər təkcə təhlil edilmir, eyni zamanda 55 illik Pəhləvi rejiminin dağılma səbəbləri açıqlanır. Müəllif yazır: "Uzun sərhəddi ilə Türkiyəyə qonşu olan bir İran dövləti, bir də İran xalqları var. Şahənşah Məhəmməd Rza tərəfindən idarə olunan bu ölkə dünya üçün bir qapalı qutu kimidir. Bu o deməkdir ki, ölümlə, zülmlə, haqsızlıqla, əsarət və ədalətsizliklə istibdad üsuluyla idarə edilən zavallı İran ölkəsi və xalqları haqqında dünya heç nə bilmir. Halbuki XX əsrin əvvəlindən indiyə kimi İranda, İran xalqları arasında zülmə və istibdada qarşı eynən Qərbdəki fikir hərəkatları kimi üsyanlar olmuş, mübarizələr aparılmış, qanlar axmış, haqlar əldə edilmiş və bir az sonra yenə tapdalanmış, bir daha qanlar axmış, mübarizə davam etmişdir, bu gün də bu mübarizə dayanmamışdır" (Ələkbərli, 2017:19). Kitab müəllifin "qapalı qutu" adlandırdığı İranın

tanıdılması, bu ölkənin içtimai-siyasi-iqtisadi həyatında baş verənlər haqqında ətraflı və mükəmməl məlumatların alınmasında olduqca dəyərli bir mənbə hesab edilə bilər.

### 3.Baykara Azərbaycan İctimai-Siyasi Fikrində

Azərbaycanın yenidən müstəqilliyinə qovuşması uzun illər adları yasaq olunmuş, hətta repressiya qurbanlarına çevrilmiş bir çox sənət adamlarının həyat və yaradıcılıq irsinin öyrənilməsi üçün geniş imkanlar açdı. "Son illərdə həyatının mühüm bir mərhələsini mühacirətdə yaşamış olan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Mirzə Bala Məmmədzadə, Hüseyn Baykara, Ümmülbanu (Banin), Almas İldırım, Abay Dağlı, Kərim Odər və digər sənətkarların yaradıcılıq irsinin öyrənilməsi sahəsində atılmış ciddi addımlar bunun canlı örnəyidir" (Nəbiyev, 2015:59). Bu sırada Baykaranın da adının olması, uzun illərdən sonra vətən həsrətli bir dissidentin gec də olsa, həm də halal haqqının özünə qaytarılması idi.

Baykaranın zəngin irsi uzun illər sonra, əslində Azərbaycanın ikinci müstəqilliyini qazanandan sonra təqdim edilsə də tədqiqatçılar arasında geniş maraq doğurmuş, haqqında mətbuatda və elmi dərgilərdə çoxsaylı məqalələr dərc edilmişdir. Ola bilsin ki, bu günümüzün realıqları baxımından yanaşılanda bunlar o qədər də böyük hadisə kimi qiymətləndirilə bilməz və Baykaranın az qala bütün ömrünü həsr etdiyi mücadiləsi önündə olsa-olsa bir damla kimi görünür və bu amil tədqiqatçıların da nəzərindən qaçmır: "Peşəkar hüquqşünas olan Hüseyn Baykaranın... Türkiyədə yazdığı "XIX əsrdə Azərbaycanda yeniləşmə hərəkatı", "Azərbaycan istiqlal mübarizəsi tarixi" və digər əsərləri siyasi mühacirətin görkəmli nümayəndələrinin-C.Zeynaloğlu, Ə.Ağaoğlu, M.B.Məmmədzadə, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlunun universal yaradıcılıqları ilə eyni sırada yer alsa da, hələ də bizim çağdaş elmi araşdırmalarda, ümumiləşdirilmiş Azərbaycan tarixi dərsliklərində qənaətbəxş səviyyədə öyrənilməməmiş, tədqiqata cəlb edilməmişdir" (Hacıyev, 2022:124). Əslində əsrin əvvələrində doğma vətənindən uzaq düşmüş, amma bir dissident kimi bütöv Azərbaycan uğrunda mübarizə yolunda "mövcud mənbələrdə bu insanın çox böyük iş gördüyünü etiraf etməliyik" (Baykara, 2017:8).

Akademik İsa Həbibbəyli onun iki kitabında təqdim olunan ön sözdə Hüseyn Baykaranın XX əsrin əvvəllərindəki azadlıq hərəkatının müxtəlif qütbləri haqqında baxışlarını mükəmməl siyasi-elmi təsnifat kimi təqdim edir, onu milli istiqlal nəzəriyyəçisi, azərbaycançılıq ideyasının kamil ideoloqu adlandırır: "Hüseyn Baykara siyasi baxışlarına görə milli istiqlalçı, idealı etibarı ilə azərbaycançı idi. O azərbaycançılığın kamil bir ideoloqu olmuş, həyatının sonuna qədər bu ideala sadiq qalmışdır. Hüseyn Baykaranın əsərləri müasir dövrdə müstəqil dövlətçilik və azərbaycançılıq ideyalarına sədaqət düşüncəsini daha da dərinləşdirib möhkəmləndirən tarixi-nəzəri irs kimi qiymətli mənbələrdir. Bu əsərlər Azərbaycan milli istiqlalının tarixi dərslərini və nəzəri təcrübəsini yeni nəsillərə çatdırmaq və milli dövlətçilik düşüncəsi aşılamaq baxımından da müasir səslənir" (Həbibbəyli, 2018:7).

Araşdırmaçı alim Faiq Ələkbərov yazır ki, "Mühacir Azərbaycan türk aydınları M.Ə.Rəsulzadə və M.B.Məmmədzadədən sonra, ictimai-siyasi və mədəni-fəlsəfi irsində Azərbaycanın istiqlal davası tarixinə və mədəniyyətinə mühüm yer ayıran mühacir ziyalı Hüseyn Baykara (1904-1984) olmuşdur" (Ələkbərli, 2017:40). Hətta o, Azərbaycan türkçülüyü ideyasının və milli azərbaycançılığın türk ideoloqları Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadədən sonra, Azərbaycan-türk ictimai-siyasi və mədəni-fəlsəfi irsində yaşadan, Azərbaycanın istiqlal davası tarixində mühüm yer tutan mühacir aydınlarımızdan Hüseyn Baykaranın olduğunu cəsarətlə söyləyir: "Azərbaycana milliyyətçilik fikrini Əhməd Ağaoğlunun Fransadan, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadənin

İstanbuldan gətirdiyi düşüncəsi yanlış və əsassızdır... Mədəni-fəlsəfi irsinin əsasını Azərbaycan ideyası təşkil edən H.Baykaranın "Azərbaycan renessansını yapanlardan Abbasqulu Ağa Bakıxanov", "Dədə Qorqud kitabı üzərinə qeydlər", "Azərbaycan istiqlal mücadiləsinin iqtisadi təməli", "Azərbaycan Cümhuriyyətinin iki hərbi zəfəri" və s. məqalələri diqqəti cəlb edir" (Ələkbərli, 2017:7 dekabr).

XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının milli mübarizəsi ruslaşdırma siyasətinə qarşı olmuş, onlar türk dilinin öyrədilməsinə və məktəblərdə tədrisinə çalışmışlar. Bu dövrdə ziyalıların böyük əksəriyyəti - C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, F.Köçərli və başqaları Azərbaycan türkcəsinin ədəbi və yazı dili olmasının tərəfdarı idilər. Bu zaman ideologiya baxımından "avropalaşmaq, islamlaşmaq və türkləşmək" fikirləri ətrafında mübahisələr gedirdi. Bütün bu mübahisələrin ətrafında xalqın milli azadlıq hərəkatı dururdu. "Azərbaycan azadlıq hərəkatını Azərbaycan xalqının tərəqqipərvər və vətənsevər ruhundan gələn demokratik adət-ənənələrə bağlamaq istəyən ziyalılar çoxluq təşkil edirdilər" (Qədimoğlu, 2023:6).

H.Baykara hesab edir ki, "Azərbaycanın istiqlal mübarizəsi tarixini yazarkən bu istiqlal uğrunda mübarizə aparanlardan danışmamaq olmaz" (Baykara, 2021: 230). Düzdü o, Fətəlixan, Tobçubaşov, Nəsib bəy, Həsən bəy Ağayev, general Səlimov və başqalarının tərcümeyi-hallarını tapa bilmədik" (230) deyə təəsüflənsə də M.Ə.Rəsulzadə (Baykara, 2021: 230-234), Mirzəbala Məmmədzadə (Baykara, 2021:291-294), eləcə də Azərbaycan parlamenti (Baykara, 2021: 244-301), ADR-n beynəlxalq vəziyyəti, onun ordusu, xaricdəki nümayəndələrinin bəziləri (Baykara, 2021: 294-306) haqqında olduqca dəyərli faktlar ortaya qoyur. Baykaraya görə, Qafqaz müsəlmanlarını "ümmətçilik"dən "millətçiliyə" yönəldən, onları "türkçülük-millətçilik", "Azərbaycançılıq ideyası" ətrafında birləşdirən və "Açıq söz" qəzetində bunu təbliğ edən Müsavat lideri M.Ə.Rəsulzadə olmuşdur. O, qeyd edir ki, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: "M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir" (Baykara, 2021: 233).

Baykaranın əsərlərini rus dilinə tərcümə edən jurnalist Saliхə Əliyeva Baykara haqqında yazdığı məqalələrində davamlı olaraq yazır: "Hüseyn Baykara Azərbaycanın öz müstəqilliyini bərpa edəcəyinə bütün qəlbi ilə inanırdı" (Алиева, 2018: Каспий). Baykara özü isə "Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr" kitabında yazırdı: "28 may 1918-ci ildə elan edilən Azərbaycanın İstiqlal Bəyannaməsi heç də təsadüfi bir əsər deyil və ya hər hansı bir şəxsin əsəri də deyil. Bu böyük tarixi hadisənin səbəbləri bu oçerkdə də izah etməyə çalışdığımız kimi Azərbaycan tarixindəki ən əsas hadisələrə əsaslanır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Azərbaycanın istiqlal hərəkatı tarixin problemi olmuşdur. Hal-hazırda da bu problem qalmaqdadır. Bu məsələni yenə də tarix həll edəcək" (Baykara, 2018: 19).

SSRİ-nin gec-tez dağılacağına inanan H.Baykara, bu tarixi hadisənin nə vaxt baş verəcəyini zamanın öhdəsinə buraxsa da onun ideoloji konturlarını da siyasi bir səriştə ilə əsaslandırırdı: "Artıq xalq, əsasən gənclər kommunizmə inanmırlar. Leninin vəd etdiyi kommunist cənnəti iflasa uğramışdır. Bu gün Sovet İttifaqında yaşayan 250 milyon əhalinin hüquqları Moskvanın Kreml sarayında oturan şovinistlər tərəfindən kobudcasına pozulmaqdadır. Görəsən bu vəziyyət nə vaxta qədər davam edəcək? Bax, əsl məsələ budur..." (Baykara,2021:18).

Uzun illər sonra da olsa bu inam yerini aldı və qoca tarix bu problemi də həll etdi: Azərbaycan 1991-ci ildə yenidən, amma bu dəfə əbədi müstəqilliyinə qovuşdu.

**Nəticə**

Hüseyn Baykara Azərbaycan türkçülüyü ideyası və onun gerçək təcəssümü olan müstəqil və milli Azərbaycan uğrunda ömrünün sonuna qədər mübarizə aparanlardan olmuşdur. Onun zəngin yaradıcılıq irsi gec də olsa Azərbaycan xalqına təqdim edildi. Uzun illər Fransanın Azərbaycandakı səfirliyində çalışmış, fransız dilində çoxsaylı məktəb və universitet dərsliklərinin müəllifi olan yaxın qohumu, Bakı Dövlət Universitetinin dosenti Azelma xanım Həsənova ömrünün uzun illərini yaxın qohumunun irsinin araşdırmalarına həsr edib, kitablarını azərbaycan və rus dillərində nəşr etdirib ictimaiyyətə çatdırıb. Baykaranın mühacirətdə üç kitabı - "Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr" Ankarada 1966-cı ildə, "Azərbaycan istiqlal mübarizəsi tarixi" adlı kitabı İstanbulda 1975-ci ildə və üçüncü kitabı "İran inqilabı və azadlıq hərəkatları" 1978-ci ildə İstanbulda nəşr edilmişdir. Azelma xanımın ideyası və təşəbbüsü ilə Azərbaycanda nəşr olunan bu kitablar Hüseyn Baykaranın da doğma övladı olduğu, Şuşada tanınmış və şərəfli yol keçmiş Şirinbəyovlər nəslinə ithaf olunub. Bu kitablar həm də Sovet rejiminin uzun illər adını yasaq etdiyi və ömrünün sonuna qədər Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış Hüseyn Baykaranı da xalqımıza tanıtdı.

Azərbaycan 1991-ci ildə yenidən müstəqilliyinə qovuşdu. Amma təəsüflər olsunası bircə şey var: Azərbaycan mühacirət tarixinin şanlı səhifələrində qürurla anılan və milli mətbuat tarixində gec də olsa mühacir publisist-yazar kimi məşhurlaşan və tanınan Hüseyn Baykaraya başı bəlalar çəkmiş Azərbaycana - doğma Qarabağa, Şuşaya qayıtmaq nəsib olmadı. Vətən həsrətli Hüseyn Baykara 1984-cü il iyulun 1-də Kayseridə vəfat etmiş, İstanbulda Qaraca Əhməd məzarlığında dəfn edilmişdir.

**ƏDƏBİYYAT**


Алиева, С. (2018). Он всем сердцем верил, что Азербайджан восстановит свою независимость. Каспій, 25 мая.- с.12.

Baykara, H. (2021). Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Jeko Print Çap Evi.

Baykara, H.(2018). Azərbaycanda yeniləşmə hərəkatı. Bakı: Kitab Klubu MMC.

Baykara, H.(2017). İran inqilabı və azadlıq hərəkatları. Bakı: Kitab Klubu MMC.

Dəhşətli saat gəlir, birlik gərək (1918), Açıq söz, 5 yanvar

Əhməd, D. (2018). Bir ildən yüz ilə. Bakı: TEAS Press.

Ələkbərli, F. (2017). Mühacirət dövründə Azərbaycan milli ideyasi (1950-1990-ci illər). Elmi əsərlər, Scientific works, № 2(29).

Ələkbərli, F. (2017). Hüseyn Baykaranın dünyagörüşündə türkçülük və azərbaycançılıq. Türküstan, 7 dekabr.

Haçıbəyli, Ü. (1919). Tarixin ən vəhşi qırğınını. Azərbaycan, 5 mart.

Hacıyev,V.(2022). Hüseyn Baykara: görkəmli şəxsiyyətin tarixçilik fəaliyyəti haqqinda bəzi qeydlər. İpək yolu, №.4.

Həbibbəyli, İ.(2018). Milli istiqlal nəzəriyyəçisi.Hüseyn Baykara.İran inqilabı və azadlıq hərəkatları (müqəddimə). Bakı: Kitab Klubu MMC.

Köprülü, F.(1935). Abbasqulu ağa Bakıxanov. İstanbul: Burhanettin nəşri, № 8.

Qədimoğlu, N.(2023). Hüseyn Baykara: azərbaycançılıq ideyasının kamil ideoloqu. Xalq qəzeti,23 dekabr.

Nəbiyev, B.(2015).Azərbaycan Xalq Cümhuriyyəti dövründə tarix və ədəbiyyat elminin öyrənilmə səviyyəsi. Baki Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. №3.

Yusifli,C.(2018).Azərbaycan istiqlal savaşının ideoloqu və "Azərbaycanda yeniləşmə hərəkatı" əsəri. Ədəbiyyat qəzeti, 31 oktyabr.